# Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında Hüseyn Cavid haqqında tamaşa hazırlanır

Azər Turanın "Atam, Anam, Qardaşım, Mən və Stalin" pyesi bir ailədə baş verən hadisələrdən bəhs edir. Bu ailə Hüseyn Cavidin ailəsidir. Əsər üzərində işləyərkən, təhlil apararkən məlum olur ki, Cavidlər ailəsinin bir çox sirləri hələ də açılmayıb. Bəlkə bu tamaşanın özündə də açılan sirlərdən başqa elə sirlər var ki, heç vaxt açılmıyacaq. Uzun bir ömür sürən Turan Cavid bu sirlərin bir qismini açsa da, çoxunu kimsəyə deməyib, özülə bərabər aparıb. Səbəb? Bu səbəbə cavab yoxdu, bəlkə də biz hələ də qorxuruq. Qorxunun da səbəbi məlumdur. Yaşamaq istəyi! Bəs görəsən Cavid qorxmurdumu? Mişkinaz, Ərtoğrol, Turan qorxmurdumu? Təəssüf ki, bu suallara da cavab tapa bilməyəcəyik. Bircə şeyi bilirik ki, kimsənin kimsənin taleyi ilə oynamağa ixtiyarı yoxdu!!!

Azər Turanın qələmə aldığı, Əməkdar incəsənət xadimi, rejissor Bəhram Osmanovun Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında hazırladığı tamaşa bu suallara cavab tapmağa çalışır.

Rolları Natiq Həziyev, Əməkdar artist Esmiralda Şahbazova, Zəki Fətəliyev, Pərvin Dadaşova, Əmrulla Nurullayev ifa edir.

Tamaşanın quruluşçu rəssamı Vahid Mürsəliyev, musiqi tərtibatı Çingiz Xəlilovundur.

Teatrın direktoru İftixar Piriyevin əməkdaşımıza bildirdiyinə görə, tamaşanın premyerası noyabr ayında baş tutacaq.

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 22 oktyabr.- S. 9.